Şeyx Əbdur-Razzəq
ibn Əbdul-Muhsin Əl-Bədr

# Övlad tərbiyəsinin əsasları

Tərcüməçi: Elçin Quliyev

Redaktor: Fərhad Adayev



Tovhid.info

# ÖVLAD TƏRBİYƏSİNİN ƏSASLARI

Müəllif:
**Şeyx Əbdur-Razzəq ibn Əbdul-Muhsin Əl-Bədr.**

Tərcüməçi**:**
Elçin Quliyev.

Redaktor:
Fərhad Adayev.

**Qeyd:** Kitab mənaya xələl gətirməyən kiçik dəyişikliklə tərcümə olunmuşdur.

**Mərhəmətli və Rəhmli Allahın adı ilə.**

Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Onun qulu, elçisi, sevimli dostu olan Muhəmmədə, onun ailəsinə və bütün səhabələrə Allahın salavatı və salamı olsun.

Həqiqətən, bu dünyada qulun üzərinə düşən ən mühüm vaciblərdən və ona verilən ən böyük əmanətlərdən biri də övladların tərbiyəsi ilə məşğul olmaq, onları ədəb sahibi etmək, düz yola yönləndirmək və onlara nəsihət etməkdir. Çünki Uca Allah övladları bizə əmanət edib, onların qayğısına qalmağı və onları qorumağı bizə əmr edib. Uca Allah möminləri vəsf edərək belə buyurur: **“O möminlər ki, əmanətlərini və vədlərini qoruyurlar”.**[1]

Həmçinin başqa ayədə belə buyurub: **“Ey iman gətirənlər! Allaha və Elçisinə xəyanət etməyin və bilə-bilə aranızdakı əmanətlərə qəsd etməyin”.**[2]

Övladlar bizə verilən bəxşişdir. Allah övladları bizə bəxş etməklə yanaşı, onları bizə əmanət edib və valideynlərin üzərinə haqlar qoyub. Həm də Allah valideynləri övladlarla imtahan edir, sınağa çəkir. Əgər valideynlər Allahın əmr etdiyi kimi övladların haqqını verərlərsə, onlar üçün Allah yanında böyük mükafat və savab olar. Yox, əgər onlar bu işdə səhlənkarlıq edərlərsə, özlərini cəzaya məruz qoyarlar və onları bu səhlənkarlığın miqyasında cəza gözləyər.

---

[1] (Əl-Muminun, 8).
[2] (Əl-Ənfəl, 27).

Uca Allah belə buyurub: **“Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!”**[3]

Bu ayə övladların qayğısına qalmağın, onları tərbiyə etməyin vacibliyinə dəlalət edən ən böyük dəlillərdəndir. Raşidi xəlifələrdən olan Əli ibn Əbu Talib (Allah ondan razı olsun) bu ayəni belə izah edib: *“Yəni onları öyrədin və ədəbləndirin”.*[4]

Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) bunu təsdiqləyən və övlad tərbiyəsinin valideynlərə vacib olduğunu bildirən səhih hədis də varid olmuşdur.

O (sallallahu aleyhi və səlləm) belə buyurub:

***“Hər kəs məsuliyyət sahibidir və hər kəs öhdəliyində olanlar barədə sorumludur. İmam məsuliyyət sahibidir və öhdəliyində olanlar barədə sorumludur. Kişi öz ailəsində məsuliyyət sahibidir və öhdəliyində olanlar barədə sorumludur. Qadın öz ərinin evində məsuliyyət sahibidir və öhdəliyində olanlar barədə sorumludur. Xidmətçi öz ağasının malı barədə məsuliyyət daşıyır və öhdəliyində olan şeylər barədə sorumludur. Diqqət edin! Siz hər biriniz məsuliyyət sahibisiniz və öhdəliyinizdə olan şeylər barədə sorumlusunuz”.***[5]

Peyğəmbərin “sorumlusunuz” sözü qula xatırladır ki, Qiyamət günü Allahın qarşısında durduqda, Allah ondan bu əmanətlər barədə soruşacaqdır. Hətta bəzi alimlər deyib ki, Allah Qiyamət günü övladları valideynlər haqda sorğu-sual etməzdən öncə valideynləri övladlar

---

[3] (Ət-Təhrim, 6).
[4] (“İmam Ət-Təbərinin təfsiri”, 33/103).
[5] (Əl-Buxari, 5188; Muslim, 1829).

barədə sorğu-sual edəcəkdir. Çünki valideynlərin övlad üzərində haqqı olduğu kimi, övladın da valideynləri üzərində haqqı vardır.

İbn Ömər (Allah ondan razı olsun) belə demişdir: *"Övladını tərbiyələndir, çünki sən onun barədə – ona hansı tərbiyəni verdiyin, ona nəyi öyrətdiyin barədə sorumlusan. O isə sənə yaxşılıq etməsi, sənə itaət göstərməsi barədə sorumludur".*[6]

Uca Allah övlada öz valideynlərinə yaxşı baxmağı tövsiyə edərək belə buyurub: **"Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq".**[7]

Həmçinin valideynlərə də övladlar barədə belə buyurub: **"Allah sizə övladlarınızla bağlı (ədalətli olmağı) əmr edir".**[8]

Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizə xəbər verib ki, valideynin övladların dininə, əqidəsinə, əxlaqına, təbiətinə çox böyük təsiri vardır. O belə deyib:

***"Hər bir doğulan uşaq fitrət üzərində doğulur. Sonradan valideyni onu ya yəhudi, ya nəsrani, ya da məcusi edir. Bunun misalı bir heyvanın balalaması misalı kimidir, heç onun*** *(yeni doğulan balanın – tərc.)* ***qulağı kəsik olduğunu görmüsənmi?!"***[9]

Bu, gözəl bir misaldır. Yeni doğulan heyvan, adətən, eyib və qüsursuz dünyaya gəlir. Onun əli, ayağı, qulağı kəsik olmur. Lakin qüsurlar sonradan onun sahibi və ya çoban tərəfindən qoyulur, ya da baxımsızlıq ucbatından

---

6 (Əl-Beyhəqi, "Əs-Sünən əl-kubra, 1035).
7 (Əl-Ənkəbut, 8).
8 (Ən-Nisə, 11).
9 (Əl-Buxari, 5188; Muslim, 1829).

başına nəsə gəlir. Yeni doğulan uşaq da belədir. O, fitrət üzərində doğulur. Yalan danışmağı, aldatmağı, fitnə-fəsad törətməyi, haqdan azmağı və başqa pislikləri isə kənardan öyrənir. Bu ya onun pis tərbiyə almasına, ya valideynlərinin səhlənkarlığına görə, ya da kənardan pis dostların, qaynayıb-qarışdığı şərli insanların təsiri ilə olur.

Bu mövzu çox mühüm olduğu üçün övlad tərbiyəsində diqqət etməli olduğumuz ən mühüm əsasları qeyd etmək qərarına gəldim. Bu şərəfli mətləbin (yəni övlad tərbiyə etmək əmanətinin – tərc.) həyata keçməsi üçün hər bir valideyn aşağıdakı əsaslara önəm verməlidir:

## Saleh həyat yoldaşı seçmək.

Övlad tərbiyəsinin əsaslarından biri – evlənərkən saleh qadın seçməkdir. Ailə qurarkən, ilk növbədə, buna diqqət yetirmək lazımdır. Çalış ki, evlənərkən öz dini, salehliyi və təqvası ilə tanınmış bir qadın seçəsən. Çünki belə qadın uşaqları tərbiyə etməkdə, onları tərbiyələndirməkdə və saleh övladlar yetişdirməkdə sənə yardımçı olacaq. Saleh qadın hətta övladlarının tərbiyəsi ilə məşğul olmasa belə, ən azından bu qadından uşaqların dininə və əxlaqına zərər gəlməyəcək. Bu səbəbdən də Peyğəmbər (sallallahu aleyhi və səlləm) din sahibi olan qadınla evlənməyə həvəsləndirərək buyurub:

***"Qadınla dörd şeyə görə ailə qururlar: malına görə, əsil-nəcabətinə görə, gözəlliyinə görə və dininə görə. Din sahibəsini seç ki, xeyir qazanasan"***.[10]

## Dua etmək.

Övlad tərbiyəsinin əsas təməllərindən biri – onlar üçün dua etməkdir. Valideyn həm övladı dünyaya gəlməzdən əvvəl, həm də dünyaya gəldikdən sonra onun üçün dua etməlidir. İnsan, ilk növbədə, Allahdan ona saleh zürriyət bəxş etməsini istəməlidir. Allah ona övlad bəxş etdikdən sonra isə Allaha dua etməlidir ki, övladlarına hidayət versin, onları islah etsin, doğru yola yönəltsin və İslam dinində sabit etsin. Bu işdə peyğəmbərlər bizim üçün gözəl bir nümunədir.

Uca Allah Öz xəlili İbrahim (aleyhissələm) haqda xəbər verir ki, o belə deyirdi: **"Ey Rəbbim! Mənə əməlisalehlərdən olan övlad bəxş et!"[11]**

Həmçinin o belə dua edərdi: **"Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et!"[12]**

Həmçinin Zəkəriyyə (aleyhissəlam) belə dua edərdi: **"Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları eşidənsən".[13]**

Mərhəmətli Allahın Quranda tərif etdiyi qulları belə dua edərdilər: **"Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı**

---

[10] (Əl-Buxari, 5090; Muslim, 1466).
[11] (Əs-Saffət, 100).
[12] (İbrahim, 40).
[13] (Əli İmran, 38).

**olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"**[14]

Allahın qullarına verdiyi nemətlərdən biri də valideynin öz övladı üçün etdiyi duaya cavab verməsi və onu geri qaytarmamasıdır.

Peyğəmbər (salləllahu aleyhi va səlləm) belə buyurub: ***"Üç dua vardır ki, onların müstəcəb olmasında şəkk yoxdur: valideynin övladı üçün etdiyi dua, müsafirin duası və məzlumun duası".***[15]

Burada bir şeyə diqqət yetirmək lazımdır ki, valideyn öz övladı üçün bəddua etməkdən, onun üçün pis şeylər istəməkdən həzər etməlidir. Xüsusən, qəzəbləndikdə öz övladlarına qarğış etməyə tələsməməlidir. Çünki, ola bilsin, Allah onun duasına cavab verər, sonra valideyn etdiyi duaya görə çox peşman olar. Allahın elçisi (sallallahu aleyhi və səlləm) bizi bundan çəkindirmiş və belə buyurmuşdur:

***"Özünüzə bəddua etməyin! Övladlarınıza bəddua etməyin! Malınıza bəddua etməyin! Birdən Allahın duaları qəbul etdiyi vaxta müvafiq olarsınız və O, duanızı qəbul edər".***[16]

Uca Allah Quranda belə buyurub: **"İnsan özünə xeyir dilədiyi kimi, şər də diləyir. Doğrusu, insan tələskəndir".**[17]

Qatədə bu ayənin təfsirində demişdir:

---

[14] (Əl-Furqan, 74).
[15] (Əbu Davud, Ət-Tirmizi. Şeyx Əl-Albani bu hədisin səhih olduğunu demişdir).
[16] (Muslim, 3009).
[17] (Əl-İsra, 11).

*"İnsan öz malına bəddua edir, malını və övladlarını lənətləyir. Əgər Allah onun duasını qəbul etsəydi, onu həlak edərdi".*[18]

Şeyx Əbdur-Rahmən Əs-Sədi demişdir:

"Bu, insanın cahilliyindən və tələskənliyindəndir. O qəzəbləndikdə özünə, malına və övladlarına qarğış edib pis şeylər diləyir. Özünə xeyir istəməyə tələsdiyi kimi, şər istəməyə də tələsir".[19]

## Uşağa gözəl ad qoymaq.

Övlad tərbiyəsinə yardım edən səbəblərdən biri də valideynin öz övladına gözəl ad seçməsidir. Uşağa Abdullah, Əbdur-Rahmən, Saleh kimi insanı Allaha itaətə bağlayan, ona əməlisaleh olmağı xatırladan adlar qoymaq lazımdır. Çünki çox vaxt uşağa qoyulan adın ona təsiri olur. Hətta bu barədə belə bir deyim də var: "Hər bir kəsin öz adından payı vardır".

Peyğəmbər (salləllahu aleyhi va səlləm) səhih hədisdə belə deyib:

***"Həqiqətən, sizin adlarınızdan Allaha ən sevimli olanı Abdullah və Əbdur-Rahməndir".***[20]

Daha münasib olar ki, valideyn övladına bu adın mənasını izah etsin. Bu adların Allaha sevimli olmasının səbəbi budur ki, əgər uşağın adı Abdullahdırsa, sən onun

[18] ("Ət-Təbərinin təfsiri", 14/513).
[19] ("Əs-Sədinin təfsiri", səh. 454).
[20] (Muslim, 2132).

mənasını uşağa izah edib deyə bilərsən ki, bu adın mənası “Allahın qulu” deməkdir və sən Allahın qulusan. O Allah ki, səni yaradıb və sənə bir çox nemətlər verib. Buna görə  sən gərək Allaha şükür və itaət edəsən.

## Övladlar arasında ədalətli olmaq.

Həqiqətən, övlad tərbiyəsinin əsas təməllərindən biri də onların arasında ədalətlə davranmaq, onlara zülm və haqsızlıq etməkdən uzaq olmaqdır. Çünki əgər valideyn öz övladları arasında ədalətlə rəftar etməzsə, bu onlarda bir-birinə qarşı düşmənçiliyə, həsədə və nifrətə səbəb olacaqdır. Amma onların arasında ədalətlə davranmağa həris olduqda, bu, övladların valideynlərini sevməsinə və onlara qarşı xeyirxah olmasına səbəb olacaqdır.

"Səhih Buxari"də Numən ibn Bəşirdən (Allah ondan razı olsun) rəvayət olunur ki, atası ona torpaq payı hədiyyə etmişdi. Anası isə onun atasından tələb etdi ki, o, Allahın elçisini (sallallahu aleyhi və səlləm) buna şahid tutsun. Allahın elçisinin yanına gəldikdə, o həmin kişiyə belə dedi:

***“Digər övladlarına da bunun mislini vermisənmi?”***

O: “Xeyr”, – cavabını verdikdə, Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə dedi:

***“Allahdan qorxun və övladlarınızın arasında ədalətli olun”.***[21]

Başqa rəvayətdə belə demişdir:

---

[21] (Əl-Buxari, 2587).

***“Mən haqsızlığa şahidlik etmirəm”.***[22]

Muslimin rəvayət etdiyi hədisdə isə Peyğəmbər (sallallahu aleyhi və səlləm) deyir:

***“Sənə yaxşılıq etməkdə övladların bərabər olsalar, sevinərsənmi?”***

O da deyir ki, əlbəttə.

Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurur ki, ***elə isə yox*** (yəni şahidlik etmir – tərc.)[23]

Bu hədislər insanı övladları arasında ədalətsizlikdən, onlara haqsızlıq etməkdən çəkindirir. Bildirir ki, bu, övladların valideynlərin üzünə ağ olmasına, onlara qarşı xeyirxah olmamasına gətirib çıxarır və övladlar arasında ayrılığa, küsülülüyə səbəb olur.

## Uşaqlara qarşı yumşaq və rəhmli olmaq.

Övlad tərbiyəsinin əsas təməllərindən biri də onlara şəfqət və lütf göstərmək, onlarla yaxşı, mərhəmətlə davranmaq, onlara qarşı sərt, şiddətli və kobud olmaqdan uzaq olmaqdır. Çünki ***“Hansı işdə yumşaqlıq olarsa, onu bəzəyər; hansı işdə o, aradan qalxarsa, onu çirkin edər”.***[24]

Övladlara qarşı rəhmət və yumşaqlıq onların ən kiçik vaxtlarından başlamalı və böyüyənə qədər davam etməlidir. Çünki bu, övladı öz valideyninə daha çox

---

[22] (Əl-Buxari, 2650; Muslim, 1623).
[23] (Muslim, 1623).
[24] (Muslim, 2594).

yaxınlaşdırır və onu sevməsinə səbəb olur. Əgər uşaq öz valideynini sevər və ona yaxın olarsa, bu zaman onu xeyrə yönəltmək və ona nəsihət etmək valideyn üçün asanlaşacaq və uşaq öz valideyninin sözünü daha rahatlıqla qəbul edəcək. Bu təməl barədə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsində çoxsaylı hədislər varid olmuşdur.

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunur: ***“Peyğəmbər (sallallahu aleyhi və səlləm) Əlinin oğlu Həsəni öpdü. Bu zaman Əqra ibn Həbis də onun yanında oturmuşdu. O belə dedi: "Mənim on övladım var, lakin mən onların heç birini öpməmişəm". Allahın elçisi (sallallahu aleyhi və səlləm) ona baxdı, sonra isə belə dedi: "Kim rəhm etməzsə, ona rəhm olunmaz".***[25]

Həmçinin möminlərin anası Aişənin (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur:

***“Bir bədəvi Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına gəldi və belə dedi: "Siz uşaqları öpürsünüz? Biz öpmürük”.***

***Peyğəmbər (salləllahu aleyhi va səlləm) belə dedi:***

***“Əgər Allah sənin qəlbindən rəhməti çıxarıbsa, mən sənin üçün nə edə bilərəm?”***[26]

[25] (Əl-Buxari, 5997; Muslim, 2594).

[26] (Əl-Buxari, 5998).

## Onlara öyüd-nəsihət və düzgün istiqamət vermək.

Övladların tərbiyəsində ən böyük təməllərdən biri də onlara davamlı şəkildə tövsiyə vermək, onları ən yaxşı işlərə və ən gözəl əxlaqa yönəltməkdir. Əlbəttə ki, ilk növbədə, onlara əqidə ilə bağlı olan məsələlər, İslamın rüknləri və vacibatı, sonra isə Şəriətin digər əmrləri öyrədilməlidir. Onları, ilk növbədə, ən böyük günahlardan, sonra isə digər qadağalardan çəkindirmək lazımdır. Övladlara nəsihətdə əsas pay buna ayrılmalıdır, sonra isə ata və ana övladlarının dünya işləri ilə maraqlanmalı, yemək, içmək və buna bənzər şeylərdən nəyin yararlı olduğuna baxmalıdır.

Ən böyük, faydalı və övladları doğru yola yönəldən nəsihətlərdən biri hikmət sahibi olan Loğmanın öz oğluna etdiyi nəsihətdir.

Uca Allah Öz kitabında "Loğman" surəsində qeyd edir ki, Loğman öz oğluna nəsihətinə tövhidlə (Allahı ibadətdə təkləşdirməklə) başlamış, daha sonra valideynlərə yaxşılıq etməyi əmr etmişdir. Sonra isə ona xatırlatmışdır ki, Uca Allah (Öz elmi ilə - tərc.) bütün məxluqatı əhatə edir, bu isə insanın hər əməlində Allahın onu görməsini və ondan xəbərdar olmasını nəzərə almağı zəruri edir.

Sonra Loğman oğlunu bədənlə edilən ən əzəmətli əməl olan namazı qılmağa həvəsləndirir. Sonda isə o öz tövsiyələrini yaxşı işləri və gözəl əxlaqı bəyan etməklə bitirir. Bu tövsiyələr barədə Uca Allah Öz kitabında xəbər verib:

**"Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! Allaha şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!” Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq, daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir.Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdikləriniz barədə sizə xəbər verəcəyəm.Loğman dedi: “Oğlum! Gördüyün iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır. Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbir et. Həqiqətən, bu, əzm tələb edən əməllərdəndir. İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.Yerişində həddi gözlə, danışanda səsini azalt. Çünki ən çirkin səs uzunqulaq səsidir”.**[27]

Quranda zikr olunan bu tövsiyələrdən görünür ki, peyğəmbərlər və saleh insanlar daim öz övladlarına tövsiyə edərdilər. Həmçinin Uca Allah Öz peyğəmbərləri

[27] (Loğman, 13-19).

İbrahim (aleyhissələm) və Yaqub (aleyhissələm) barədə xəbər verərək belə buyurub:

**"İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!" Yoxsa siz Yaquba ölüm gəldikdə onun yanında idiniz? O zaman o öz oğullarına dedi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, atalarının – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!"**[28]

Həmçinin Uca Allah Öz peyğəmbəri İsmayılı (aleyhissələm) öz ailəsinə namaz qılmağı və zəkat verməyi əmr etdiyi üçün tərifləyir. Uca Allah belə buyurub:

**"Kitabda İsmayılı də xatırla! Həqiqətən, o öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı"**.[29]

Həmçinin Allah Öz peyğəmbəri Muhəmmədə (sallallahu aleyhi və səlləm) əmr edib ki, fərz namazları qorusun və bunu öz ailəsinə də əmr etsin. Uca Allah buyurub:

**"Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir!"**[30]

Övladlara tövsiyə etmək dedikdə buna həmçinin, övladı musiqiyə qulaq asmaq, zərərli peyk kanallarını

---

[28] (Əl-Bəqərə, 132-133).
[29] (Məryəm, 54-55).
[30] (Ta Hə, 132).

izləmək, haram alətlərdən istifadə etmək kimi onların dinini və əxlaqını korlayan hər bir şeydən çəkindirmək də daxildir. Eləcə də, onları haram şeylər olan əyləncəli yerlərə getməkdən də çəkindirmək lazımdır.

## Saleh yoldaşlar.

Övladın kiminlə oturub-durduğuna və kiminlə yoldaşlıq etdiyinə nəzarət etmək tərbiyədə diqqət olunmalı ən önəmli məsələlərdəndir. Çünki yoldaş, adətən, insanı özünə tərəf çəkir və insan oturub-durduğu adamlardan təsirlənir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) xeyir və şər işlərdə yoldaşın insana necə təsir etdiyini misal çəkərək buyurub :

***“Saleh yoldaşla pis yoldaşın misalı müşk satanla körük üfürən kimsənin misalı kimidir. Müşk satan kəs ya sənə ondan hədiyyə edər, ya sən ondan ətir alarsan, ya da ki ondan gözəl qoxu hiss edərsən. Amma körük üfürən kəs ya sənin paltarını yandırar, ya da ki ondan pis qoxu gələr”.***[31]

Başqa hədisdə Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə buyurub:

***“Kişi öz dostunun dinindədir. Ona görə də hər biriniz kiminlə dostluq etdiyinə baxsın!”***[32]

---

[31] (Buxari, 5534; Muslim, 2628).

[32] (Əbu Davud, 4833. Səhihdir. Bax: Əs-Silsilə əs-sahihə, 927).

Valideyn övladının istər məktəbdə, istərsə də başqa yerlərdə kimlərlə oturub-durduğunu araşdırmalı və bu işdə ona nəzarət etməlidir.

İndiki zəmanədə əvvəllər mövcud olmayan yeni "yoldaşlar" icad olunub ki, bunların insana təsiri heç də əvvəlkilərdən az deyil. Söhbət televiziya kanallarından, internet səhifələrindən, telefon və digər cihazlarda olan sosial şəbəkələrdən gedir. Çünki uşaqlar istər evdə, istərsə də çöldə – haraya getsələr, əllərində bu əşyaları daşıyırlar. Bu cihazlar əgər valideynlərin nəzarəti altında olmazsa, o zaman uşaqların ağlına, dininə, əxlaqına və ədəbinə böyük bir təhlükə olar. Görün bu cihazların vasitəsilə nə qədər gənc oğlan və qızlar öz yolunu azıblar. Bu şeylər nə qədər gənci tədricən böyük bəlalara və murdar əməllərə aparıb çıxarıbdır – bunu yalnız Allah bilir!

## Gözəl örnək.

Övlad tərbiyəsinin əsaslarından biri də onlar üçün gözəl nümunə olmaqdır. Valideyn övladlarına bir şeyi əmr edirsə, birinci növbədə, özü bu əmri yerinə yetirməyə həris olmalıdır. Həmçinin əgər onları şər əməldən çəkindirirsə, özü də həmin əməldən uzaq olmalıdır. Valideyn övladına bir söz deyib, özü onun əksini etməməlidir. Çünki bu, övladların zehnində uyğunsuzluq və böyük bir ziddiyyət əmələ gətirir.

Nəticədə, övlad valideynin etdiyi nəsihəti və verdiyi tərbiyəni qulaqardına vuraraq tərk edir.

Uca Allah Quranda İsrail oğullarını qınayaraq belə buyurur: **"Siz Kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz? Məgər anlamırsınız?"[33]**

Başqa ayədə buyurur ki, Şueyb (aleyhissəlam) öz qövmünə belə dedi: **"Sizə qadağan etdiyim şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm"**.[34]

Həmçinin Uca Allah belə deyib: **"Ey iman gətirənlər! Nə üçün etməyəcəyiniz şeyləri danışırsınız? Etməyəcəyiniz şeylərdən danışmağınız Allah tərəfindən böyük nifrətlə qarşılanır".[35]**

Həmçinin alimlər deyirlər ki, insanlar bir kəsin dediklərindən daha çox onun əməllərinə baxıb nümunə götürürlər.

Bu, övladları tərbiyə etməkdə, onları ədəbləndirməkdə köməkçi olan sadəcə bir neçə əsasdır. Müsəlman bilməlidir ki, bu əsaslara diqqət yetirib onları tətbiq edərsə, bunun bəhrəsini həm dünyada, həm də Axirətdə, ilk növbədə, özü görəcəkdir. Dünyadakı səmərəsi odur ki, tərbiyəli övlad valideynlərinə qarşı xeyirxah olur, onların haqlarını qoruyur və üzlərinə ağ olmur. İslam dini insana gözəl tərbiyə verir və onu valideynə yaxşılıq etməyə rəğbətləndirir.

---

[33] (Əl-Bəqərə, 44).
[34] (Hud, 88).
[35] (Əs-Saff, 12-13).

Axirətdə isə faydası odur ki, saleh övlad öz valideyni üçün dua edəcək. Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə buyurub:

***“Adəm övladı öldükdə bu üçündən başqa onun bütün əməlləri kəsilir: davamlı olan sədəqə, fayda verən elm və onun üçün dua edən saleh övlad”.***[36]

Həqiqətən, övlad tərbiyəsi böyük məsələdir və hər bir valideynə vacibdir ki, buna fikir versin. Çox vaxt övladların korlanmasının səbəbi valideynlərin səhlənkarlığı olur.

İbn Qeyyim (Allah ona rəhm etsin) belə demişdir:

*“Kim övladına fayda verəcək şeyləri öyrətmir və onu başlı-başına buraxırsa, o öz övladına ən böyük pisliyi etmişdir. Bir çox uşaqların korlanmasına səbəb valideynlər özləri olublar. Ya birbaşa özləri uşaqlara təsir edib, ya da ki onları başlı-başına buraxaraq dinin vaciblərini və sünnətlərini onlara öyrətməyiblər” .*[37]

Burada valideynin yada salmalı olduğu bir mühüm məsələ də var ki, valideynlər övladların tərbiyəsində, onların islah olunmasında və qorunmasında bu əsaslara önəm verməklə yanaşı, Allaha təvəkkül etməli və Ona bel bağlamalıdırlar.

İbn Useymin (Allah ona rəhm etsin) belə demişdir:

*“Bir insan Allahdan qorxsa və şəri səbəblərə əməl edərək öz övladlarını tərbiyə etsə, Allah onun övladlarını islah edər”.*[38]

---

[36] (Muslim, 1631).

[37] (“Tuhfətul-məvdud”, səh. 229).

[38] (“Fətəva Nurun aləd-dərb”, 2/24).

Allahdan istəyirəm ki, övladlarımızı düzgün tərbiyə etməkdə bizə yardım etsin və onları aşkar olan və ya gizli qalan bütün fitnələrdən qorusun. Həqiqətən, O hər şeyi eşidən və dualara cavab verəndir.

Peyğəmbərimiz Muhəmmədin, onun ailəsinin və səhabələrinin üzərinə Allahın salavatı və salamı olsun.